1_Layout 1 27.04.2023 9:51 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 9 (648)

29 aprel 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# ƏDALƏTİ DƏ, SÜLHÜ DƏ "DƏMİR YUMRUQ" TƏMİN EDƏCƏK

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Ədaləti də, sülhü də "dəmir yumruq" təmin edəcək" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



44 günlük müharibənin üzərindən kifayət qədər vaxt keçib, amma Hayastan ötən müddət ərzində sülh müqaviləsinin bağlanması istiqamətində nəinki hansısa real addım atıb, əksinə, məqsədyönlü şəkildə ölkəmizə qarşı ardıcıl təxribatlar törədərək bu prosesi süni şəkildə əngəlləməyə çalışıb.

Elə aprelin 11-də hayların Azərbaycana qarşı törətdikləri növbəti təxribat da bölgədə vəziyyəti gərginləşdirmək və barışığa mane olmaq üçün həyata keçirilən daha bir məkrli plana cəhd idi.

### Havadarları hayları məhvə sürükləyir

Düzdür, bu, başqa reallıqdır ki, "dəmir yumruq" hər dəfəsində təxribatçı Hayastana layiqli dərsini verərək yerinə otuzdurur. Amma istənilən halda o da gerçəklikdir ki, sülh müqaviləsinin imzalanması Hayastanın bir dövlət olaraq varlığı üçün həyati əhəmiyyət daşıyır. İllərdir sərsəm ideologiya arxasınca qaçaraq min bir fitnə-fəsada, özgənin torpaqlarına iddia etməyə başı qarışan haylar özlərini blokadaya salıblar, iqtisadi, sosial, demoqrafik böhrana sürükləyiblər. Üstəgəl, Vətən müharibəsində biabırçı məğlubiyyətlərindən sonra hərbi sahə başda olmaqla, bütün sferalarda dirçəlişi mümkün olmayan iflasa uğrayıblar.

Hayastanın bu "performans"la Cənubi Qafqazın şəksiz lideri Azərbaycana qarşı hansısa revanş hisslərə qapılması, sülh prosesinə təxribatlar yolu ilə əngəl olmağa çalışması sadəcə gülüncdür.

Vətən müharibəsində "dəmir yumruq" qarşısında diz çökərək məğlubiyyət aktının altına qol qoyan Hayastan zaman keçdikcə təxribatçı əməllərini yenidən törətmək cürəti nümayiş etdirir. Amma gec, ya da tez Azərbaycanın diktə etdiyi şərtlərlə sülh müqaviləsini bağlamağa məhkum olduqlarını hiyləgər hayların özləri də yaxşı bilirlər. Sadəcə, Azərbaycana qarşı açıq düşmənçilik aparan xarici havadarlarının göstərdiyi dəstək, onlar tərəfindən pulsuz silahlarla təmin olunmaları, eyni zamanda dövlətimizin razılığı olmadan gətirib sərhədlərimizə yığdıqları Avropa İttifaqının məramı sülh olmayan missiyasının varlığı, habelə Avropa Parlamentinin ölkəmizə qarşı "qətnamə" adı ilə qəbul etdiyi bir-iki kağız-kuğuz parçası hayları yenidən revanşa həvəsləndirir. Amma bu quduz iştahalarının Hayastanın özünü məhvə sürüklədiyi də gün kimi ortadadır.

### İşğal, müharibə, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapacaq

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni özü icra edərək torpaqlarını işğaldan azad edən Azərbaycan ədaləti güc yolu ilə döyüş meydanında təmin etdi. Çünki beynəlxalq qurumlar üç onillik boyu Azərbaycanın torpaqlarının Hayastanın işğalı altında olmasına göz yumdular, bu barədə susdular. Yüzminlərlə yurdundan didərgin salınan vətəndaşımızın taleyinə biganə qaldılar, xalqımıza qarşı törədilən qırğınlara, soyqırımlara heç bir hüquqi qiymət vermədilər, buna görə faşist xisləti haylara təzyiq göstərmədilər.

Amma Azərbaycan qüdrətli dövlətdir və milli mənafelərini istər döyüş, istər siyasi platformada qətiyyətlə həll etmək iqtidarında və əzmindədir.

Necə ki, bu barədə martın 18-də Tərtər rayonunun Talış kəndində bayram tonqalı alovlandıran zaman Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib: "İşğal reallıqları, müharibə reallıqları, postmüharibə reallıqları sülh danışıqlarında öz əksini tapmalıdır və tapacaq. Əks təqdirdə heç bir sülh müqaviləsi olmayacaq. Ermənistana lazım deyilsə, bizə də lazım deyil. Ondan sonra görək, baxaq bunun axırı nə olacaq?!".

### Qisasımız qətiyyətlə alındı

Zəfərdən sonra işğaldan azad edilən torpaqlarda minatəmizləmə əməliyyatına, quruculuq və bərpa işlərinə başlayan ölkəmiz paralel olaraq Cənubi Qafqazda davamlı sülhün əldə olunması naminə əməli addımlar atıb, Hayastana təkmil sülh modeli təklif edib. Rəsmi Bakı sülh prosesi çərçivəsində baş tutan üçtərəfli görüşlərdə hər zaman barışıqdan yana olduğunu nümayiş etdirib.

Aprelin 12-də Prezident İlham Əliyev Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul etdiyi zaman da məlumat verdi ki, Ermənistanla Azərbaycan arasında hazırda sülh prosesi iki istiqamət üzrə həyata keçirilir. Dövlət başçısı Azərbaycanın Qarabağ iqtisadi regionundan olan erməni sakinlərlə birbaşa təmasların həyata keçirilməsi istiqamətində Bakıda görüşlərin təşkil edilməsinə dair təkliflərlə çıxış etdiyini vurğuladı və bu xüsusda Azərbaycan tərəfindən xüsusi nümayəndənin təyin edildiyini dedi və onların Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edildiyini bildirdi.

Eləcə də dövlət başçısı aprelin 11-də Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidenti qeyd edərək, bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu bildirdi.

Xatırladaq ki, aprelin 11-də saat 16:20 radələrində Hayastan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutublar. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutub. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində düşmən təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub. Təxribatın qarşısını alarkən Azərbaycan Ordusunun üç hərbi qulluqçusu şəhid olub.

Görünən odur ki, Hayastan İkinci Qarabağ müharibəsində uğradığı biabırçı məğlubiyyətini unudub, ya da unutmaq istəyir.

Amma aprelin 11-də igid döyüşçülərimiz mənfur haylara elə bir divan tutdular ki, şəhidlərimizin qisasını layiqincə aldılar ki, qiyamətə qədər yadlarından çıxara bilməyəcəklər. Onu da heç zaman unutmayacaqlar ki, "dəmir yumruq" yerindədir, yəni təcavüzkar Hayastanın başının üzərindədir.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Aprelin 14-ü Daxili İşlər Nazirliyində mülkiyyət əleyhinə cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılmasının, prosessual araşdırmalar zamanı qanunçuluğa və uçot-qeydiyyat intizamına riayət edilməsinin, ailə münaqişəsi zəminində törədilən cinayətlərin profilaktikası sahəsində görülən işlərin vəziyyətinə həsr olunmuş Kollegiya iclası keçirilib.



İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, möhkəm təməllərə söykənən ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2023-cü ilin I rübündə məqsədyönlü şəkildə davam etdirilib.

Ümumi cinayətlərin açılması 81,9 faiz təşkil edib və 80,3 faizi böyük ictimai təhlükə törətməyən və az ağır növlər olub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 9.448 cinayətin 83,5 faizi, o cümlədən keçmiş illərdən bağlı qalmış 95 cinayət açılıb. Qəsdən



adamöldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, mənzillərdən edilən oğurluqlar, mal-qara oğurluqları, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən və odlu silahın tətbiqi ilə baş verən hüquqazidd əməllər 2022-ci ilin 3 ayı ilə müqayisədə azalıb. Ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adamöldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, habelə quldurluqların açılması yaxşılaşıb. İstintaq prosesində görülmüş tədbirlərlə cinayətlərdən zərər çəkmiş şəxslərə vurulmuş maddi ziyanın 78,5 faizi ödətdirilib.

Həmçinin yerli və dövlətlərarası axtarışda olan 1.572 təqsirləndirilən şəxs tutulub, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 170 cinayətkar qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 59 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 1 ton 418 kiloqram, yəni ötən ilin analoji dövrü ilə müqayisədə 354 kiloqram çox narkotik vasitə çıxarılıb. Müxtəlif kriminal əməllər törətmiş 4 min nəfər məhkəmə məsuliyyətinə verilib.

Ölkədə keçirilmiş 183 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə, habelə işğaldan azad edilmiş ərazilərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti hüquq qaydasının təmini vəzifələrini tam yerinə yetirib.

Kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə 1.258 vətəndaşın qəbulu həyata keçirilərək qaldırılan məsələlərin əksəriyyəti yerində həll edilib, 23.042 vətəndaş müraciəti hərtərəfli və obyektiv araşdırılıb, təşəbbüskarlar hüquqları izah edilməklə yazılı məlumatlandırılıb. Nazirliyin "102" Xidmətinə və "qaynar xətlər"inə daxil olan, eləcə də sosial şəbəkələrdə yayımlanan hər bir şikayətə çevik reaksiya verilib, insanların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilib.

Kollegiyada bayır xidmətinin fəaliyyətinin təşkili və vətəndaşların narazılığını doğuran hüquqpozmaların qarşısının alınması üzrə verilmiş tapşırıqların icrası barədə nazir müavini polis general-mayoru Oqtay Kərimov, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə təşviq edilməsi məsələsi ilə əlaqədar Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov, gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov, Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi polis general-mayoru Emil Usubov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi polis general-mayoru Sərdar Səfərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bir sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələrin icrasını böyük əzmlə həyata keçirdiyini, xüsusən respublikada və onun paytaxtı Bakı şəhərində ağır və xüsusilə ağır cinayətlərin açılmasında yüksək peşəkarlıq, qətiyyət və operativlik göstərmiş nazirliyin və ərazi polis qurumlarının 136 əməkdaşının mükafatlandırıldığını diqqətə çatdırıb.

Eyni zamanda, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin və vətəndaş məmnunluğunun təmin edilməsinin vacibliyini nəzərə çatdıraraq bu istiqamətlərdə fəaliyyətin səmərəliliyinin artırılması, ümumi işə mənfi təsiri olan halların qarşısının alınması ilə bağlı vəzifələri müəyyən edib, eləcə də tapşırıq və tövsiyələrini verib.

Nazir general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.

2_Layout 1 27.04.2023 10:14 Page 1



# “Formula-1 Azərbaycan Qran Pri” yarışı ilə əlaqədar Daxili Qoşunların şəxsi heyətinin hazırlığı yoxlanılıb





Aprelin 20-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı şəhərində yerləşən “N” saylı hərbi hissələrində Daxili Qoşunların komandanlığı tərəfindən “Formula-1 Azərbaycan Qran Pri” yarışı zamanı polis orqanlarının əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, təminat-təchizat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb.

Aidiyyəti hərbi hissə komandirləri tərəfindən məruzə edilib ki, yarış zamanı xidməti-döyüş tapşırıqlarının və müəyyən edilmiş vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunub. İlk növbədə, müvafiq planhesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə baş idarəetmə mərkəzi yaradılıb. Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarını qorunması prinsipləri izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunub.

Bununla yanaşı, qeyd olunub ki, hazırlıq mərhələsində həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması mövzuları üzrə xüsusi məşğələlər keçirilib, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Tədbirə hazırlıqların yoxlanılması məqsədilə xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi





heyətin, o cümlədən qadın hərbi qulluqçuların xüsusi geyim formalarına, hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələri ilə təchizatına və nəqliyyat vasitələrinə baxış keçirilib.

**Mətbuat xidməti**

## HƏRBİ HİSSƏ KOMANDİRLƏRİNİN TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ MÜAVİNLƏRİ İLƏ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

Aprelin 18-19-da 25031 saylı hərbi hissədə Ali Hərbi Məktəb rəisinin və hərbi hissə komandirlərinin tərbiyə işləri üzrə müavinləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışa ümumilikdə 17 nəfər tərbiyə işləri üzrə müavin cəlb olunub.

Məşğələ cədvəlinə uyğun olaraq, Daxili Qoşunlarda mənəvi-psixoloji təminatın təşkili üzrə Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri çatdırılıb, hərbi hissələrdə tərbiyə işinin, hərbi intizamın və təhqiqatın vəziyyəti təhlil olunub, qeyd edilən istiqamətlər üzrə mövcud nöqsanların aradan qaldırılmasında hissə komandanlıqlarının fəaliyyəti barədə məlumat verilib.



Toplanışda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə “Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu sahəsində xidmətləri və azərbaycançılıq ideologiyasının formalaşmasında rolu” mövzusunda göstərici məşğələ keçirilib.

Metodiki-təlim toplanışında iştirak edən Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov tərbiyə işləri üzrə müavinlərə mövcud nöqsanların aradan qaldırılması, hərbi intizamın qorunub saxlanılması barədə müvafiq tapşırıqlar verib, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının tələb və tövsiyələrini çatdırıb.

Sonda Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və direktivlərinin tələbləri üzrə məqbullar qəbul edilib.

**kapitan Xədicə Hacızadə**

## XÜSUSİ-TAKTİKİ TƏLİM UĞURLA BAŞA ÇATIB





Aprelin 13-də 12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin və tapşırıqların yerinə yetirilməsi üçün ayrılmış qrupların iştirakı ilə “Nəqliyyat infrastrukturu obyektlərində terror aktlarının qarşısının alınması” mövzusunda xüsusi-taktiki təlim keçirilib. İlk olaraq, təlimin keçiriləcəyi ərazi öyrənilib, təlimin



təşkili və keçirilməsinə dair müvafiq sənədlər hazırlanıb.

Bundan əlavə, xüsusi-taktiki təlimə cəlb olunan şəxsi heyətin mənəvi-psixoloji durumu, fərdi keyfiyyətləri, bilik və bacarıqları dərindən öyrənilib, mənəvi-psixoloji hazırlığın və tərbiyə işinin səviyyəsinin yüksəldilməsində əsas diqqətin dövlətçiliyə, xidməti-vəzifə borclarının sədaqətlə yerinə yetirilməsinə, fədakarlığa, qanunçuluğun və hərbi intizamın möhkəmlənməsinə, xəsarətalma hallarının qarşısının alınmasına yönəldilməsi barədə söhbətlər aparılıb, təbliğat-təşviqat işi təşkil olunub.

Ümumilikdə, 250 nəfər hərbi qulluqçunun cəlb olunduğu təlimdə nəqliyyat infrastrukturu obyektlərində terror aktlarının qarşısının alınması üzrə mühasirə, istehkam və kinoloji qrupların fəaliyyəti nümayiş etdirilib.

Təlimin sonunda hərbi hissə komandiri general-mayor Səlim Niftalıyev çıxış edərək təlimə yekun vurub, qarşıya qoyulan məqsədlərə ümumən nail olunduğunu bildirib, mövcud nöqsanların aradan qaldırılması məqsədilə müvafiq tapşırıqlar verib.

**kapitan Xədicə Hacızadə**

## ULU ÖNDƏRİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL OLUNUB

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə aprel ayının 22-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində təntənəli mərasim keçirilib. Mərasimdə Nərimanov Rayon İcra Hakimiyyətinin nümayəndəsi, tarixçi-alim Rasim Rzaxanov iştirak edib.

Mərasimdə Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-vəzifə borclarının icrası zamanı həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev tədbirdə çıxış edərək, dövlətimizin qurucusu, azərbaycançılıq ideologiyasının banisi Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, xalqımıza, dövlətimizə verdiyi töhfələr, eləcə də dahi liderin rəhbərliyi altında ordu quruculuğu sahəsində görülən genişmiqyaslı işlər barədə məlumat verib.

Daha sonra çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin nümayəndəsi, tarixçi-alim R.Rzaxanov Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu və ictimai-siyasi fəaliyyəti barədə geniş danışıb.

“Heydər Əliyev və 44 günlük Zəfər yolu” sənədli filmi nümayiş etdirilib.

Tədbir Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin musiqili proqramı ilə davam edib.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ HİSSƏDƏ ŞƏHİDLƏR ABİDƏSİ YARADILIB

Daxili Qoşunların şəxsi heyəti istər Birinci Qarabağ müharibəsi, istərsə də 44 günlük Vətən müharibəsi zamanı şərəfli döyüş yolu keçib. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda ləyaqətlə vuruşaraq, şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın əziz xatirəsi heç vaxt unudulmur. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində davamlı olaraq işlər görülür, müxtəlif tədbirlər həyata keçirilir.

17072 saylı hərbi hissədə digər hərbi hissələrimizdə olduğu kimi, şəhidlər abidəsi yaradılıb. Abidənin üzərində Daxili Qoşunların emblemi, eləcə də hərbi hissənin şəhid hərbi qulluqçularının şəkilləri və adları həkk olunub, önündə isə əbədi məşəl alovlandırılıb. Bununla yanaşı, abidənin ətrafında abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb,



burada işıqlandırma sistemi quraşdırılıb.

Hərbi hissəyə dəvət olunan şəhid ailələrinin üzvləri və qazilər tərəfindən abidə ziyarət olunaraq, önünə gül dəstələri qoyulub, igid döyüşçülərimizin xatirəsi ehtiramla anılıb.

**Yalçın Abbasov**

3_Layout 1 27.04.2023 10:00 Page 1



*Şəhidlərimiz*

# "LAÇIN BİZİ GÖZLƏYİR..."

"Laçın bizi gözləyir! Yolumuz Laçınadır!". Böyük qürur hissi ilə deyilmiş bu sözlər cəsur xüsusi təyinatlımız çavuş Ceyhun Rzayevə məxsusdur. Əslən Laçın rayonunun Zeyvə kəndindən olan Ceyhunun 44 günlük Vətən müharibəsi zamanı mobil telefonu ilə düşməndən azad olunmuş ərazilərimizdə özünün və yoldaşlarının çəkdiyi, hazırda isə müxtəlif internet saytları vasitəsilə yayımlanan bir neçə qısametrajlı videokadrda da onun bu sözləri səslənir. Təbii ki, bütün bunlar igid silahdaşımızın otuz ilə yaxın düşmən tapdağı altında olmuş doğma ata-baba yurdunu hər zaman görmək arzusu ilə yaşamasından xəbər verir.

Beləliklə, "Şəhidlərimiz" rubrikasının budəfəki qəhrəmanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur döyüşçüsü çavuş Rzayev Ceyhun İsmayıl oğludur.

Çavuş Ceyhun Rzayev 1994-cü il sentyabrın 16-da Bərdə şəhərində anadan olub. İsmayıl Rzayevin və Mehparə Rzayevanın vətənpərvər ruhda böyüdüb tərbiyə etdikləri Ceyhunun özündən yaşca kiçik Leyla adlı bacısı var.

Ceyhun orta təhsilini Bərdə şəhərindəki şəhid Fəxrəddin Muradovun adını daşıyan 7 saylı tam orta məktəbdə alıb. Ailəsinin verdiyi məlumata görə, Ceyhun hələ yeniyetmə yaşlarından idmana, o cümlədən polis və hərbçi peşələrinə böyük maraq göstərib. Təhsil aldığı dövrdə idmanın güləş növü ilə məşğul olub, iştirak etdiyi zona birinciliyi üzrə yarışlarda müxtəlif dərəcəli diplom və medallarla mükafatlandırılıb. Məktəbin müəllim-şagird kollektivi, qohum-əqrəba, həmçinin yaşadığı məhəllə sakinləri arasında tərbiyəli, böyük-kiçik yeri bilən və hər kəslə mehriban davranan gənc kimi tanınıb.

Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin oktyabr ayından 2014-cü ilin aprel ayınadək Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin "Kobra" xüsusi təyinatlı dəstəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra elə həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib və bir müddət burada atıcı vəzifəsində xidmət edib. 2014-cü ilin iyul ayından yenidən "Kobra" xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən Ceyhun əvvəlcə atəş təminatı qrupunun 12,7 mm-lik iriçaplı pulemyot yarımqrupunun heyət nəfəri, 2015-ci ilin mart ayından etibarən isə həmlə qrupunun atıcısı vəzifələrində Vətənə olan borcunu ləyaqətlə yerinə yetirib. Vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan çavuş C.Rzayev yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə hər zaman fərqlənib.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini – qərargah rəisi olmuş mayor Rəşad Məmmədov (hazırda 17072 saylı hərbi hissədə xidmətini davam etdirir) vaxtilə birgə qulluq etdiyi çavuş C.Rzayevin nümunəvi xidmətindən və döyüşlər zamanı göstərdiyi şücaətdən qürur duyduğunu dedi. Ceyhunun intizamlı, komandirlərin etimadını doğruldan, hər kəslə mehriban ünsiyyət qurmağı və hör-



mət qazanmağı bacaran nümunəvi hərbi qulluqçu olduğunu bildirdi: "Bir xüsusi təyinatlı kimi vəzifə borclarının icrasına məsuliyyətlə yanaşıb. Praktiki təlimlərə, əsasən də atəş və fiziki hazırlıq məşğələlərinə hər zaman böyük maraq göstərib.

Vətən müharibəsində iştirak edəcəyi xəbərini Ceyhun digər yoldaşları kimi böyük qürur və sevinc hissi ilə qarşılamışdı. İşğal olunmuş torpaqlarımızı, o cümlədən doğma ata-baba ocağı olan Laçını vuruşaraq düşməndən azad etmək isə onun bir xüsusi təyinatlı amalı idi. Döyüş meydanında düşmənin başına od-alov yağdıran cəsur silahdaşımıza güc, qüvvət verən başlıca amil də elə məhz bu idi".

Bəli, Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş C.Rzayev Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə fəal iştirak edib. O, silahdaşları ilə birgə bir sıra yaşayış məntəqələrimizin, eləcə də mühüm əhəmiyyət kəsb edən yüksəkliklərin işğalçılardan azad edilməsilə nəticələnən döyüş əməliyyatlarında ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edib, əsl şücaət göstərib.

6 noyabr 2020-ci il tarixdə Şuşa uğrunda gedən şiddətli döyüş isə Ceyhunun son döyüşü olub. Belə ki, düşmənin atdığı tank mərmisinin yaxınlığında partlaması nəticəsində Ceyhun ağır qəlpə yarası alıb. Yoldaşları tərəfindən cəsur silahdaşımıza vaxtında ilk tibbi yardımın göstərilməsinə və nisbətən təhlükəsiz əraziyə təxliyyə edilməsinə baxmayaraq, daxili qanaxma səbəbindən noyabrın 7-də, səhərə yaxın əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib.

Vətən müharibəsi qazisi, vaxtilə 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı vəzifəsində xidmət etmiş çavuş Mübariz Qurbanzadə (hazırda Əlahiddə Çevik Polis Alayının polis serjantı kimi xidmətini davam etdirir) Ceyhunla bağlı xatirələrini danışdı: "Çavuş C.Rzayevlə eyni qrupun tərkibində xidmət etmişik. Tanışlığımız da məhz buradan başlayıb. Həm xidmət zamanı, həm də digər vaxtlarda birlikdə olurduq, bir-birimizə qardaş kimi əziz idik. Ceyhun haqqında onu deyə bilərəm ki, olduqca sakit təbiətli insan idi. Mərdliyi, igidliyi, qorxmazlığı, vətənpərvərliyi, eyni zamanda fiziki hazırlığı ilə hər zaman nümunə olub.

Hər dəfə Qarabağ mövzusunda söhbət düşəndə Ceyhun deyirdi: "Kaş ki, cənab Ali Baş Komandan döyüş əmri versin, biz vuruşub torpaqlarımızı azad edək, qaçqın və məcburi köçkünlərimiz isə öz doğma yurdlarına qayıdıb xoşbəxt yaşasınlar". Bəli, onun və hər birimizin arzuladığı o gün nəhayət ki, gəlib çatdı. Tale elə gətirdi ki, 44 günlük Vətən müharibəsində də Ceyhunla eyni qrupun tərkibində Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində gedən döyüş əməliyyatlarında iştirak etdik. Lakin təəssüflər olsun ki, 2020-ci il oktyabrın 3-də Cəbrayıl istiqamətindəki döyüşdə yaralanmağım səbəbindən onunla birgə sonadək vuruşa bilmədim.

Müharibə zamanı Ceyhunun əsl vətənpərvər xüsusi təyinatlı olduğunun bir daha şahidi oldum. Onun döyüşü sanki canlı bir əfsanəyə bənzəyirdi. Gözündə qorxu hissi qətiyyən yox idi. Düşmənin üzərinə getmək və onları ancaq yaxın məsafədən məhv etmək Ceyhunun sanki bir döyüş üslubu idi.

Yaxşı yadımdadır, Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı düşmənin artilleriya atəşi nəticəsində çavuş C.Rzayev partlayış travması almışdı. Onu qospitala təxliyyə etmək istəsələr də, öz təkidi ilə yenidən sıralarımıza qayıdıb, döyüşləri davam etdirmişdi. Ən yaxın dostu olmuş çavuş Elvin Məmmədovun 2020-ci il oktyabrın 3-də Cəbrayıl istiqamətində şəhid olması xəbərini alandan sonra isə çox sarsılmış, erməni işğalçılarına qarşı nifrət və intiqam hissi daha da alovlanmışdı. O, mənfur düşmənlə son nəfəsinədək döyüşəcəyinə, dostu Elvinin və bütün şəhidlərimizin intiqamını alacağına söz vermişdi".

Çavuş M.Qurbanzadənin bildirdiyinə görə, döyüşlərin birində dəstənin hərbi qulluqçusu çavuş Sərxan Osmanov düşmən snayperinə tuş gələrək ağır yaralanmışdı. Bunu görən Ceyhun cəld bir şəkildə özünü Sərxana yetirərək nisbətən təhlükəsiz yerə təxliyyə edib, ona ilk tibbi yardım göstərdikdən sonra "sən hələlik burada qal" – deyib, özü yenidən döyüşməyə başlamışdı.

Vətən müharibəsi qazisi, ehtiyatda olan gizir Şiraz Həsənov da Ceyhunun əsl yoldaş və cəsur döyüşçü olduğunu qeyd etdi. Bildirdi ki, Vətən müharibəsi zamanı ayrı-ayrı qrupların tərkibində cəbhənin müxtəlif istiqamətlərində vuruşsalar da, onunla birgə Şuşa uğrunda gedən döyüşlərdə iştirak ediblər: "Noyabrın 5-də Ceyhunla Şuşa-Xankəndi və Şuşa-Laçın yollarının kəsişməsindəki meşəlik ərazidə qarşılaşdıq. Ceyhunu 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət etdiyim dövrdən tanısam da, bu dəfə üzü tüklü olduğu üçün əvvəlcə tanıya bilməmişdim. Sonra onunla xeyli söhbət etdik. Mənə döyüşlər zamanı düşmənin açdığı atəş nəticəsində qol əzələsindən dəymiş 5.45 mm-lik güllənin yerini göstərdi. Həmin gülləni müharibə xatirəsi kimi cibində saxlayırdı. Bundan əlavə, sinəsinə taxdığı döyüş önlüyündə müxtəlif



çaplı güllələrdən bir ədəd saxladığını dedi. Ceyhundan bunu nə üçün etdiyini soruşanda isə mənə bildirdi ki, döyüşlər zamanı düşmənə əsir düşməkdənsə, məhz ölməyi üstün tutduğu üçün istənilən silahla həyatına son qoya bilsin deyə hər güllədən bir ədəd saxlayıb. Ceyhunun üzərində 2 ədəd "Muxa" tipli qumbaraatan, öz avtomat silahından əlavə, bir də snayper tüfəngi vardı. Dediyinə görə, onunla bir dəstədə döyüşmüş, Müdafiə Nazirliyinin xüsusi təyinatlısı kiçik gizir Musa Əsgərov şəhid olduqdan sonra snayperini Ceyhuna təhkim ediblər. O, şəhid silahdaşının snayperini böyük qürurla daşıyır və düşmənə qarşı istifadə edirdi.

Artıq hava getdikcə qaralırdı. Saat təxminən 20:00 olardı. Qrupumuzun qarşısına Şuşadan Xankəndinə və əks istiqamətə hərəkət edən şəxsi heyətlə dolu düşmən texnikalarını mühasirəyə salıb məhv etmək tapşırığı qoyulmuşdu. Bu zaman şiddətli döyüş başladı, ermənilərin zirehli texnikası, xeyli sayda şəxsi heyəti və təchizat daşıyan avtomobilləri məhv edildi. Qorxuya düşərək qaçmağa cəhd edən düşmən hiylə işlədərək silahlı şəxsi heyətini yaralı adı ilə tibb maşınlarına mindirib döyüş mövqeyindən çıxarmağa çalışırdı. Bunu görən Ceyhun cəld bir şəkildə "Muxa" tipli qumbaraatanla içərisi silahlı şəxsi heyətlə dolu "UAZ" markalı tibb maşınını vurdu".

Şirazın bildirdiyinə görə, yenidən ayrı-ayrı qrupların tərkibində döyüş tapşırığını yerinə yetirdikləri üçün noyabrın 6-sı səhərə yaxın çavuş C.Rzayevlə sağollaşıb, ayrılmalı olublar. Ceyhunun olduğu qrup daha da irəliyə gedərək, Şuşanın Xankəndi istiqamətindən girişində, qala divarlarının aşağısındakı səngərlər olan yerdə döyüşü davam etdiriblər: "Hava hələ açılmamışdı. Həmin vaxt Xankəndi istiqamətindən ermənilərin tankı gecəgörmə cihazı ilə bizim şəxsi heyət olan mövqeləri aramsız atəşə tutdu. Şəxsi heyət arasında xeyli şəhid və yaralılarımız oldu. Həmin vaxt çavuş C.Rzayev də ağır qəlpə yarası almışdı. Şuşanın içərisində villa vardı, təxliyyə maşını gələ bilmədiyi üçün bütün şəhid və yaralıları aparıb orada yerləşdirmişdilər. Noyabrın 7-də səhər saatlarında Şuşada olarkən onun qəhrəmancasına həlak olması xəbərini eşidib çox pis olmuşdum. Buna heç cür inana bilmirdim. Özümü cəld yaralılar olan həmin villaya yetirdim. Orada yaralı silahdaşlarımıza yardım göstərən 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atıcı-sanitarları çavuş Tahir Babayev və çavuş Orxan Həsənovdan (Silahlı Qüvvələrə ehtiyata buraxılıb) Ceyhun barədə xəbər alanda onun daxili qanaxmadan şəhid olduğunu dedilər. Bildirdilər ki, cəsur silahdaşımız uzanıqlı vəziyyətdə özünü yaxşı hiss etmədiyi üçün buradakı kresloda əyləşmiş və gözlərini həyata əbədi yummuşdu".

Vətən müharibəsi iştirakçıları 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin yarımqrup komandiri olmuş baş çavuş Elnur Zuliyev (hazırda hüquq-mühafizə orqanında xidmətini davam etdirir) və 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı çavuş Adəm Əmənov da eyni qrupun tərkibində birgə vuruşduqları çavuş C.Rzayevin şücaətlərindən qürur hissi ilə danışdılar. Ceyhunun və digər şəhid silahdaşlarımızın döyüş meydanında göstərdikləri qəhrəmanlıqların gənc nəslə örnək olduğunu bildirdilər.

Bərdə regional "ASAN xidmət" mərkəzinin Qeydiyyat şöbəsi tərəfindən şəhidin ailəsinə verilən ölüm haqqında şəhadətnamədə çavuş C.Rzayevin döyüşdə həlak olduğu tarix 8 noyabr 2020-ci il göstərilib.

Çavuş C.Rzayev 2020-ci il noyabrın 11-də Bərdə rayonunun Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15, 24 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə çavuş Rzayev Ceyhun İsmayıl oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

# HƏRBİ QULLUQÇULARIMIZ DİGAH KƏNDİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİBLƏR

Aprelin 7-də 25033 saylı hərbi hissənin qərargahının kimya və mühəndis xidmətinin rəisi mayor Rasim Şıxlinski, Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarəsinin mətbuat xidmətinin zabiti kapitan Şahin Cəfərzadə, 25033 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin mütəxəssisi gizir Orxan İbrahimov və DQBİ-nin şəxsi heyət üzrə idarəsinin mətbuat xidmətinin fotomüxbiri baş çavuş Fariz Vəliyev şəhid hərbi qulluqçumuz çavuş Cavad İbadovun Masallı rayonunun Digah kəndində yaşayan ailəsi ilə görüşüblər. Bu görüşdən öncə adları qeyd edilən hərbi qulluqçular və 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin bir qrup şəxsi heyəti tərəfindən şəhidin Digah kəndinin qəbiristanlığındakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Qeyd edək ki, çavuş C.İbadov 1996-cı il dekabrın 10-da Masallı şəhərində doğulub. İbadovlar ailəsinin sonbeşiyi idi. Masallı şəhər şəhid Sakit Tağıyev adına 4 saylı Digah tam orta məktəbində təhsil alıb. Daxili Qoşunların 25031, 17071 saylı hərbi hissələrində müddətli, 17072 saylı hərbi hissəsində isə müddətdən artıq həqiqi hərbi xidmət keçib. O, 44 günlük Vətən müharibəsində ilk gündən iştirak edərək erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub. 2020-ci il oktyabrın 16-da Xocavənd rayonunun Hadrut qəsəbəsinin yaxınlığında şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25 dekabr 2020-ci il, 24 iyun 2021-ci il



tarixli müvafiq sərəncamları ilə çavuş C.İbadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Cavadın valideynləri Cabir İbadov və Rəsmiyyə İbadova ilə söhbət ediblər. Söhbət zamanı valideynləri Cavadın ömür yolu barədə xatirələrini bölüşüblər. Onun qayğıkeş, ailəcanlı, xeyirxah, ədəb-ərkanlı, təbiəti sevən, istedadlı gənc kimi formalaşdığı vurğulanıb. Yeniyetmə yaşlarından çoxşaxəli yaradıcılıq qabiliyyəti özünü büruzə verib. Müxtəlif əl işləri, çəkdiyi rəsmlər, düzəltdiyi, habelə təmir etdiyi texniki qurğular, evin və həyətin abadlaşdırılması üçün əməyinin bəhrəsi haqqında da danışılıb. Valideynləri oğullarının orta məktəbdə həvəslə təhsil aldığını, çağırışaqədərki hazırlıq fənnindən fəallıq göstərdiyini, o vaxtdan hərbçi peşəsinə rəğbət bəslədiyini deyiblər. Bununla yanaşı, fiziki hazırlığına diqqət yetirdiyini, bacarıqlı futbolçu olduğunu söyləyiblər. Diqqətə çatdırılıb ki, Cavad həyatını hərbçi peşəsinə bağlamaqla əlaqədar qərar verərkən valideynlərinin xeyir-duasını alıb. Həm atası, həm də anası onun hərbi xidmətdə uğurları ilə qürur duyublar, xüsusi təyinatlı kimi xidmət etməsi iftixarlarını daha da artırıb.

Şəhidin anası Rəsmiyyə xanım bildirib ki, Cavad sonuncu dəfə 2020-ci ilin sentyabr ayında evdə olub. Əvvəlki gəlişlərində olduğu kimi, daha çox doğmalarına vaxt ayırıb, onların qayğıları ilə maraqlanıb. Həmin ay müharibə başlayanda Cavad ön cəbhəyə göndərildiyini ailəsinə deməyib. O həmişə ailəsinin onunla bağlı narahat olmasına yol verməməyə çalışıb. Ancaq müharibə vaxtı bütün hərbçi ailələrində olduğu kimi, İbadovlar ailəsi də həyəcanlı və sarsıntılı günlər yaşayıb. Cavadın nəşi gec tapılaraq noyabrın 29-da ailəsinə gətirilib. O günədək ümidlə xəbər gözləyiblər. Övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Cavadın torpaqlarımızın düşmən tapdağından azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır. Doğmaları Cavadın unudulmaz xatirələri ilə yaşadıqlarını vurğulayıblar.

Mayor R.Şıxlinski və kapitan Ş.Cəfərzadə Cavadın və digər şəhidlərimizin fədakarlığı nəticəsində ölkəmizin qazandığı hərbi zəfərin tarixi əhəmiyyətini qeyd ediblər. Hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunulub.



Hərbi qulluqçularımız Cavadın evdə yaradılmış xatirə guşəsi və yaradıcılıq nümunələri ilə tanış olublar.

İgid xüsusi təyinatlının ailəsi göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların komandanlığına və şəxsi heyətinə minnətdarlığını ifadə edib.

**Mətbuat xidməti**

# AYRI YERLƏŞƏN PATRUL TABORU ÖZ VƏZİFƏLƏRİNİ UĞURLA YERİNƏ YETİRİR

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboru həm müasir infrastrukturu, həm də xidməti fəaliyyəti ilə fərqlənir.

Məlumat üçün bildirək ki, 2020-ci il martın 4-də cənab Ali Baş Komandan tərəfindən hərbi hissənin ayrı yerləşən patrul taborunun açılışı olub. Taborla ilk tanışlığımız zamanı hərbi qulluqçuların istifadəsinə verilən kazarmada, eləcə də ərazidə həqiqətən də göz oxşayan səliqə-sahman, nizamın olması diqqətimizi cəlb etdi.



Tabor komandiri polkovnik-leytenant Səxavət İldırımov ictimai qaydanın və təhlükəsizliyin təmin olunması üzrə tabeliyində olan şəxsi heyətin qarşısına mühüm vəzifələrin qoyulduğunu bildirdi. Qeyd etdi ki, həm qarnizonda, həm də qarnizondan kənarda qəflətən qarşıya çıxan tapşırıqların icrasına, xüsusi tədbirlərin keçirilməsi zamanı bölmələrin dəqiq, mütəşəkkil və birgə fəaliyyətinə nail olmaq, idarəetmənin vəziyyətinin yaxşılaşdırılması sahəsində kəsərli tədbirlər həyata keçirmək, zərurət olduqda Vətənin müdafiəsi üzrə döyüş əməliyyatlarında iştirak etmək komandanlıq tərəfindən qarşılarına qoyulan tapşırıqlardır. Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.



Polkovnik-leytenant S.İldırımov burada gündəlik fəaliyyət haqqında məlumat verərkən söylədi ki, bölük növbətçisi və bölüyün gün növbətçisi, nəzarət-buraxılış məntəqəsi növbətçisinin köməkçisi, park, eləcə də əsgər yeməkxanası naryadına patrul və təminat bölüklərinin, qarovul xidmətinə isə komendant taqımının şəxsi heyəti cəlb olunur. Hər bir xidmətin təşkilinin aidiyyəti zabitlər tərəfindən diqqət mərkəzində saxlanıldığını deyən tabor komandiri şəxsi heyətin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiyini nəzərimizə çatdırdı.







Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, əsgər yeməkxanası və parkda xidmətin təşkili qənaətbəxşdir.

Döyüş hazırlığının yüksəldilməsi məqsədilə hərbi qulluqçuların təliminə ciddi diqqət yetirildiyini deyən polkovnik-leytenant S.İldırımov tabor komandirinin müavini-qərargah rəisi mayor Namir Qurbanovun şəxsi heyətlə keçirilən məşğələlərə şəxsən nəzarət etdiyini vurğuladı.

Şəxsi heyətin Daxili Xidmət Nizamnaməsində nəzərdə tutulmuş qaydalara ciddi riayət etməsi taborda yüksək intizamın, sağlam mənəvi mühitin yaranmasını şərtləndirir. Belə bir mühitdə sözsüz ki, sağlam düşüncəli, hərtərəfli hazırlığa malik əsgərlər formalaşır.

Görülən işlərin, aparılan profilaktik tədbirlərin nəticəsidir ki, 2022-ci ilin yekun yoxlaması zamanı taborun şəxsi heyəti müsbət göstəricilər əldə edib. Təqdirəlayiq haldır ki, xidməti-vəzifə borclarının icrasında və hərbi hissə qarşısında qoyulan tapşırıqların yerinə yetirilməsi zamanı fərqləndiyinə görə polkovnik-leytenant S.İldırımov cari ildə “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunub.

**kapitan Nigar Ağayeva**

*İdman*

# DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ UĞRUNDA YARIŞ KEÇİRİLİB

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə aprelin 15-də Ali Hərbi Məktəbdə Daxili Qoşunların birinciliyi uğrunda cüdo üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 16076 və 25031 saylı hərbi hissələrdən 6 komanda olmaqla, ümumilikdə, 42 nəfər hərbi qulluqçu iştirak edib.




Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**60 kq çəki dərəcəsində:**

I yer - əsgər Fərid Zərbəliyev (67987 saylı hərbi hissə);

II yer - kursant Amil Məmmədov (Ali Hərbi Məktəb);

III yer - baş leytenant Cabbar Cəfərov (99713 saylı hərbi hissə).

**66 kq çəki dərəcəsində:**

I yer - kursant Murad Əhmədli (Ali Hərbi Məktəb);

II yer - kursant Neymar Xəlilov (Ali Hərbi Məktəb);

III yer - MAXE çavuş Yusif Qüdrətov (99713 saylı hərbi hissə).

**73 kq çəki dərəcəsində:**

I yer - əsgər Yusif Salmanov (16076 saylı hərbi hissə);

II yer - MAXE çavuş İlkin Səlvərov (67987 saylı hərbi hissə);

III yer - kursant Rizvan Sultanov (Ali Hərbi Məktəb).

**81 kq çəki dərəcəsində:**

I yer - kursant İbad Allahquluzadə (Ali Hərbi Məktəb);

II yer - əsgər Qismət Məmmədzadə (16076 saylı hərbi hissə);

III yer - MAXE çavuş Məmməd Mustafayev (99713 saylı hərbi hissə).

**90 kq çəki dərəcəsində**

I yer - əsgər İlkin Yusifov (16076 saylı hərbi hissə);

II yer - əsgər Elvin Kərimov (16076 saylı hərbi hissə);

III yer - MAXE çavuş Mübariz Məmmədzadə (67987 saylı hərbi hissə).

**100 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Ramil Muradxanov (67987 saylı hərbi hissə);

II yer - MAXE çavuş Tahir Əmraslanov (99713 saylı hərbi hissə).

**+100 kq çəki dərəcəsində**

I yer - MAXE çavuş Amir Muradxanov (99713 saylı hərbi hissə);

II yer - MAXE çavuş Bəhruz Orucov (25031 saylı hərbi hissə).

Komandalar üzrə nəticələrə gəldikdə Ali Hərbi Məktəb 1-ci, 16076 saylı hərbi hissə 2-ci, 67987 saylı hərbi hissə 3-cü yerə layiq görülüb. Hərbi hissələr arasında birincilik yarışlarının nəticələrinə əsasən, birinci yerin sahibi kubok və diplomla, 2 və 3-cü yerlərin sahibləri isə diplomla təltif ediliblər.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏTİN TİBBİ TƏMİNATI UĞURLA HƏYATA KEÇİRİLİR

67987 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları uğurla icra edir.

Tibb xidmətinin rəisi tibb xidməti mayoru Cəbrayıl Talıbov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



O, şəxsi heyətin tibbi təminatı barədə məlumat verərkən bildirdi ki, xidmət gündəlik olaraq öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat”ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. İlk olaraq xidmətdə iclas keçirilir, görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.



Gün ərzində tibb xidmətinin hərbi qulluqçuları tərəfindən ambulator xəstələrin qəbulu, onlara yardım göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması həyata keçirilir. Bundan əlavə, həkim nəzarəti altında xəsarət alanlara və xəstələrə təxirəsalınmaz yardım göstərilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə və sterilizasiyasına xüsusi diqqət yetirilir.

Eyni zamanda, qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin, məzuniyyət və ezamiyyətdən qayıdan hərbi qulluqçuların tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin edilir.

Tibb xidməti mayoru C.Talıbov görülən işlərdə tibb məntəqəsinin həkim-terapevti tibb xidməti leytenantı Firuz Mənəfzadənin zəhmətini xüsusilə vurğuladı. Qeyd edim ki, tibb xidməti leytenantı F.Mənəfzadə 2022-ci ilin iyul ayından 67987 saylı hərbi hissədə xidmət edir. Gənc olmasına və hərbi hissədə qısa müddət xidmət etməsinə baxmayaraq, funksional vəzifələrinin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir. Hərbi qulluqçumuz 2020-ci ilin sentyabr ayının 27-də başlayan 44 günlük Vətən müharibəsində iştirak edib, hərbi həkim kimi öz vəzifələrini layiqincə yerinə yetirib. Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə “Suqovuşanın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilib.

Bundan əlavə, tibb məntəqəsinin aptek rəisi-feldşeri gizir Abdulla Babayev, tibb məntəqəsinin feldşeri gizir Zülfiyyə Cəlilova və tibb məntəqəsinin sanitar təlimatçısı-dezinfektoru baş çavuş Məhəbbət Zeynalova öz vəzifələrinə məsuliyyətlə yanaşırlar. Belə ki, gündəlik olaraq əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir.

Bir sözlə, hərbi hissənin şəxsi heyətinin tibbi təminatı uğurla həyata keçirilir.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# LAYİQLİ XİDMƏT MƏSULİYYƏT HİSSİNDƏN İRƏLİ GƏLİR

2016-cı ildən Daxili Qoşunların sıralarında hərbi xidmət keçən baş çavuş Şəhriyar Quliyev məsuliyyətlə, vicdanla vəzifələrini yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu bu illər ərzində üzərinə düşən məsuliyyəti dərk edərək peşə hazırlığını artırmaq məqsədilə əzmlə çalışıb.



O, 1996-cı ilin dekabr ayının 28-də Cəlilabad rayonunun Ləkin kəndində doğulub. Cəlilabad rayonu Ləkin kənd orta məktəbinin məzunudur. 2015-2016-cı illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Əsgəri xidmətini başa vurduqdan sonra həyatını hərbi xidmətə bağlamağı arzulayan Şəhriyar elə bu istəklə 2016-cı ildə Daxili Qoşunların 64412 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.

Hazırda 64412 saylı hərbi hissənin yanacaq-sürtkü materialları anbarlarının rəisi vəzifəsində xidmətini ləyaqətlə davam etdirir.

Anbarlarda olan maddi-texniki vəsaitlərin düzgün mədaxil-məxaricinə, onların buraxılması üzrə sənədlərin tərtib edilməsinə, uçotun dəqiq aparılmasına, daxili qaydalara riayət olunmasına, sanitar vəziyyətə, yanğından mühafizəyə və ümumilikdə, bütün təhlükəsizlik tədbirlərinin görülməsinə cavabdehdir. Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrin yanacaq-sürtkü materialları ilə təminatını hərtərəfli və fasiləsiz həyata keçirmək, anbarlarda saxlanılan əmlakların miqdarını bilmək, mövcudluğuna, o cümlədən keyfiyyətinə nəzarət etmək də anbar rəisinin funksional vəzifələrinə daxildir.

Baş çavuş Ş.Quliyev bildirdi ki, gün ərzində anbarlarda olan əmlakların dəqiq hesabatı aparılır, mədaxil-məxaric sənədləri məsul icraçıya təqdim olunur. Bundan başqa, ayda bir dəfədən az olmayaraq məsul icraçı ilə tutuşdurma aparılır.

Hərbi hissə komandanlığının etimadını doğruldaraq funksional vəzifələrinin icrasına ləyaqətlə yanaşan hərbi qulluqçu verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ XƏBƏRLƏR

·YENİLİKLƏR ·

## ASELSAN-ın “Aslan”ı xidmətə hazırdır

ASELSAN şirkətinin inkişaf etdirdiyi “Aslan” yerüstü döyüş robotu Türkiyə Ordusuna və təhlükəsizlik qüvvələrinə dəstək göstərmək üçün xidmətə hazırdır. “Poliqon” xəbər verir ki, bu barədə ASELSAN şirkətinin sosial şəbəkə hesablarından paylaşım edilib.

“Aslan” yerüstü döyüş robotu orta ağırlıqdakı sinfə aid platformadır. Çəkisi 700 kiloqram və maksimum sürəti 10 km/saat olan “Aslan” hərəkət gücünü elektrik mühərrikindən alır. Avtonom çalışa və uzaqdan idarə edilə bilən döyüş robotu verilən tapşırıqdan asılı olaraq 4 saatdan artıq fəaliyyət göstərmək imkanına sahibdir.




# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan polkovnik Rəcəbəli Məmmədovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17077 saylı hərbi hissənin komandanlığı polkovnik Hüseyn İsmayılova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı polkovnik-leytenant Ramazan Əliyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin komandanlığı kapitan Sadiq Nəbiyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000